# Xocalı soyqırımı – 25



Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (21.702)

*26 fevral 2017-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir

Fevralın 25-də Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə gül qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül qoymuşlar.

Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 24 yanvar tarixli Sərəncamına əsasən ölkəmizin hər yerində Xocalı soyqırımının iyirmi beşinci ildönümü qeyd olunur. Xalqımızın məruz qaldığı Xocalı soyqırımı iyirmi beş il bundan əvvəl Azərbaycanın Xocalı şəhərində baş verdi. Həmin gün əliyalın Xocalı sakinləri erməni hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə əsl vətənpərvər kimi vuruşmuş, düşmən qarşısında mətin dayanmış, xalqımızın əyilməzlik salnaməsinə şərəfli səhifələr yazmışlar.

Ali Məclisin Sədri demişdir: Dinc əhaliyə – qocalara, qadınlara və uşaqlara qarşı Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi nə idi? Niyə məhz Xocalı hədəf alınmışdı? Məqsəd – bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli məntəqəni zəbt etmək, amansız işgəncə metodları ilə Azərbaycan xalqının gözünü qorxutmaq, mübarizə əzmini qırmaq və bu yolla Azərbaycanın digər torpaqlarını da işğal etmək idisə, digər tərəfdən bu ərazilərin Azərbaycan türklərinə məxsus olduğunu sübut edən qədim abidələri tarixdən birdəfəlik silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal olunandan dərhal sonra onun ətrafında xalqımıza məxsus tarixi abidələr, Xocalı-Gədəbəy mədəniyyətinin qalıqları, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanları, siklop tikililər, dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı xüsusi texnika ilə dağıdılaraq məhv edilmişdir.

Qeyd olunmuşdur ki, Xocalı soyqırımının baş verməsinin digər bir səbəbi isə 1992-ci ildə öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət dairələrinin və müxalifət qüvvələrinin xalqın taleyinə tam biganəlik nümayiş etdirmələri və hakimiyyət uğrunda apardıqları mübarizə idi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə olaraq xüsusi bəyanat verərək Xocalı soyqırımını törədənləri kəskin ittiham etmiş, Xocalı şəhidlərinin xatirəsi Naxçıvanda anılmış və ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının tanıdılması, erməni millətçiliyinin beynəlxalq miqyasda ifşası sahəsində sistemli iş aparılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq informasiya və təşviqat kampaniyası çərçivəsində vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və xaricdə yaşayan azərbaycanlılar ardıcıl və səmərəli fəaliyyət göstərirlər. Hər il soyqırım günü dünyanın müxtəlif ölkələrində Xocalı qurbanlarının xatirəsi anılır, tədbirlər keçirilir, erməni vəhşiliklərini əks etdirən materiallar nümayiş etdirilir.

Ali Məclisin Sədri bir daha Xocalı şəhidlərinin xatirəsini dərin ehtiramla yad etmiş, çıxışını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İqdırda Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunmuş mərasim keçirilib







***Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair Tədbirlər Planına əsasən ilk tədbiri Baş Konsulluğun xidmət ərazisi olan İqdır vilayətində həyata keçirib.***

Tədbir Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu ilə Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası (TADDEF) və İqdır Azərbaycan Evi Dərnəyinin (İAED) birgə təşkilatçılığı əsasında keçirilib.

Təşkil edilən tədbirdə Azərbaycanın Qars Baş konsulu Nuru Quliyev, İqdır vali vəkili Bilgehan Karanfil, İqdır vilayəti baş prokuroru Sedat Turan, Daxili İşlər İdarəsinin müdiri Orxan Çevik, alay komandiri Qəhrəmən Dikmən, Azərbaycanın Qars Baş Konsulluğunun diplomatik heyəti, protokol üzvləri və iş adamları, qeyri-hökumət təşkilatları nümayəndələri, Heydər Əliyev Fən Liseyi idarəçiləri, şagirdləri, dərnək başçıları və iqdırlılar iştirak ediblər.

Əvvəlcə Xocalı şəhidlərinin ruhuna "Qurani-Kərim"dən ayələr oxunub.

Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev, Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası (TADDEF) və İAED-in sədri Sərdar Ünsalın çıxışları dinlənilib.

Xocalı soyqırımının səbəb, məqsəd və nəticələrindən bəhs edən çıxışçılar XX əsr boyu erməni millətçilərinin təşkilatçılığı ilə bu toplumdan düzəldilən silahlı dəstələrin xalqımıza qarşı törətdikləri ağır cinayətlərdən və bu amansızlığın davamı olan Xocalı soyqırımının dünyada tanıdılması prosesi barədə iştirakçılara ümumi məlumat veriblər.

Baş konsul Nuru Quliyev diqqətə çatdırıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində davam edən proseslər ermənilərin xalqımıza qarşı törətdikləri cinayətlərin mahiyyətini ifşa edir.

Tədbirin sonunda Xocalıya həsr edilmiş şeir müsabiqəsi olub. Keçirilən şeir müsabiqəsinin qaliblərinə hədiyyələr verilib.

* * *

***Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair Tədbirlər Planına əsasən ikinci tədbiri Baş Konsulluğun xidmət ərazisi olan İqdır vilayətində həyata keçirib.***

Tədbir Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu ilə İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin birgə təşkilatçılığı əsasında həyata keçirilib.

İqdır Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev, İqdır vali vəkili Bilgehan Karanfil, İqdır vilayəti baş prokuroru Sedat Turan, Daxili İşlər İdarəsinin müdiri Orxan Çevik, alay komandiri Qəhrəmən Dikmən, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Ərzurum Atatürk Universitetinin professoru Kerem Karabulut və həmin universitetin dosenti Mevlut Yüksəl, o cümlədən Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğunun diplomatik heyəti, protokol üzvləri və iş adamları, qeyri-hökumət təşkilatları nümayəndələri, Heydər Əliyev Fənn Liseyi idarəçiləri, şagirdləri, dərnək başçıları və iqdırlılar iştirak ediblər.

Əvvəlcə Xocalı şəhidlərinin ruhuna "Qurani-Kərim"dən ayələr oxunub.

Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyevin, İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acarın, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, Ərzurum Atatürk Universitetinin professoru Kerem Karabulutun və həmin universitetin dosenti Mevlut Yüksəlin çıxışları olub.

XX əsrin sonunda təcavüzkar Ermənistan tərəfinin Azərbaycana qarşı ortaya atdığı əsassız ərazi iddialarından yaranmış Dağlıq Qarabağ problemi əsasında törədilən Xocalı soyqırımının təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəldilmiş insanlıq cinayəti olduğunu ifadə edən çıxışçılar əminliklə bildiriblər ki, bütün sahələr üzrə inkişaf edən və qüdrətlənən Azərbaycan dövləti bu cinayəti törədənləri beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verməyə məcbur edəcəkdir. Diqqətə çatdırılıb ki, ilk dəfə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə soyqırımı kimi tanıdılan Xocalı hadisəsinin bütün dünya birliyi tərəfindən soyqırımı aktı kimi tanıdılmasına nail olmaq Azərbaycan xalqının beynəlxalq hüquq tərəfindən tanınan haqqıdır.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi muxtar respublikamızın bütün rayonlarında anılıb

## Şərur rayonu






***Şərur şəhərindəki “Bahar” kinoteatrında Xocalı soyqırımına həsr olunmuş anım tədbirinin iştirakçıları əvvəlcə kinoteatrın foyesində təşkil edilmiş sərgidə Xocalıda baş verən qanlı faciələri əks etdirən fotoşəkillər, rəsm əsərləri, qəzet və jurnal materialları, kitablar, eyni zamanda məktəblilərin bu mövzuda çəkdikləri rəsm əsərləri ilə tanış olublar.***

Aparıcılar Xocalıda həyata keçirilmiş soyqırımı, həmçinin ermənilər tərəfindən xalqımıza qarşı 200 ildən artıq bir müddətdə dəfələrlə törədilmiş qırğınlar barədə məlumat veriblər. Qeyd olunub ki, iyirmi beş il bundan əvvəl bəşəriyyət daha bir erməni vandallığının şahidi olub. İyirmi beş ildir ki, dünyanın hər tərəfində sülhsevər insanlar bu faciənin soyqırımı kimi tanınmasını tələb edir, erməni vəhşiliyinin növbəti və dəhşətli nəticələrinin soyqırımı aktı kimi qəbul edilməsini istəyir.

Bildirilib ki, azğınlaşmış erməni silahlı birləşmələrinin, eləcə də onlara açıq-aşkar havadarlıq edənlərin bu soyqırımı aktını törətməkdə məqsədi Azərbaycan xalqının mübarizə əzmini qırmaq və onu bütünlüklə məhv etmək idi. Lakin düşmənin niyyətləri baş tutmadı, dövlətimiz və dövlətçiliyimiz möhkəmləndi, iqtisadiyyatımız dirçəldi, qüdrətli və sarsılmaz milli ordu yaradıldı. Bu gün xalqımız tam əmindir ki, ölkə Prezidentinin apardığı qətiyyətli siyasət nəticəsində işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək, məkrli düşmən öz layiqli cəzasını alacaqdır.

Vurğulanıb ki, Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bu gün ardıcıl iş aparılır. Bunun nəticəsidir ki, artıq bir çox ölkələrdə ermənilərin soydaşlarımıza qarşı törətdikləri soyqırımı siyasəti qəti şəkildə pislənilib və bu, qəbul edilmiş rəsmi sənədlərdə öz əksini tapıb. Heydər Əliyev Fondu tərəfindən təsis edilən “Xocalıya ədalət” Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyası da bu istiqamətdə xeyli iş görüb.

2012-ci il fevral ayının 2-də Meksika Senatının qəbul etdiyi qərarda Xocalıda 1992-ci ildə baş vermiş faciə soyqırımı adlandırılıb, elə həmin il Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş soyqırımını pisləyən qətnamə qəbul edib, Kolumbiya Parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb. Xocalı soyqırımının 25 illiyi ərəfəsində isə Şotlandiya Parlamenti qanlı qırğına siyasi qiymət verilməsi haqqında qətnamə qəbul edib.

Sonra “Xocalıda son gecə” adlı sənədli film nümayiş etdirilib.

Tədbirdən sonra bir neçə Şərur şəhər sakini ilə söhbət etdik. Əli Abbasov bildirdi ki, bu xalqın Mübariz İbrahimov, Çingiz Qurbanov kimi oğulları çoxdur. Ali Baş Komandanın bircə tapşırığı kifayətdir ki, əsli-kökü olmayan ermənilər əzəli Azərbaycan torpaqlarından çıxarılsın. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirləri hər bir azərbaycanlı dəstəkləyir və inanır ki, hər ötən gün bizi Xocalıya qayıdacağımız günə yaxınlaşdırır. O gün isə uzaqda deyil.

## Babək rayonu




***Xocalı faciəsinin 25-ci ildönümü fevralın 25-də Babək rayonunda da dərin hüzn və ehtiramla anılıb. Rayon ictimaiyyətinin nümayəndələri Mədəniyyət Evinə gələrək Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin Xocalıya həsr olunmuş, ümumilikdə, 100-dən çox rəsm əsərinin nümayiş etdirildiyi sərgiyə baxıblar.***

Sərgidə həmçinin faciənin miqyasını özündə əks etdirən çoxsaylı şəkillər, qəzet və kitablar nümayiş etdirilib. İctimaiyyət nümayəndələri ermənilərin və onların havadarlarının azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı, deportasiya siyasətini özündə əks etdirən stendlərə, rayondakı tam orta məktəblərin istedadlı şagirdlərinin rəsm əsərlərinə baxıblar.

Tədbirin aparıcısı bildirib ki, erməni cəlladları tərəfindən xalqımıza qarşı törədilmiş Xocalı soyqırımı aktının ildönümü hər il Azərbaycanın hər yerində, eləcə də bir sıra dünya ölkələrində dərin kədər və hüznlə qeyd olunur, faciənin əsl günahkarları lənətlənir. Azərbaycan xalqı Xocalı faciəsini heç zaman unutmayacaq və doğma Qarabağımızı azad etməklə bütün şəhidlərimizin qisasını alacaqdır.

Bildirilib ki, ermənilər XIX-XX əsrlərdə Azərbaycana qarşı açıq ərazi iddiaları ilə çıxış edərək bu məkrli niyyətlərini gerçəkləşdirmək üçün terror, soyqırımı və deportasiya siyasəti yürüdüblər. 25 il əvvəl xalqımız 20-ci əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımına məruz qalıb. Həmin müdhiş gün yüzlərlə soydaşımız qəddarlıqla qətlə yetirilib, şikəst edilib, işgəncələrə məruz qalıb. Lakin xalqımız öz azadlığı uğrunda mübarizədən geri çəkilməyib, əksinə, əsrlərlə arzusunda olduğu müstəqillik yolunda mücadilədə daha əzmkar olub.

Tədbirdən sonra söhbətləşdiyimiz rayon sakini Möhsün Həsənov dedi ki, Xocalı bir əsrdə 3 dəfə qırğınlara məruz qalıb. 1905-ci ildə, 1918-ci ildə yandırılıb, 1992-ci ildə isə Xocalı daha dəhşətli faciəyə düçar olub. Çünki mühüm strateji əhəmiyyət daşıyan Xocalı ermənilərin yolu üstündə böyük bir manеə idi. Dağlıq Qarabağa gedən həm avtomobil, həm də dəmir yolunun üzərində yerləşən Xocalı strateji dəhliz rolunu oynayırdı. Bu ərazini zəbt etmədən Dağlıq Qarabağa nəzarət etmək qeyri-mümkün idi. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri məhz buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaqdı. Buna görə də Xocalının işğalı düşmən üçün vacib amilə çevrilmişdi.

Rayonun digər sakini Allahverdi Allahverdiyev bildirdi ki, 2016-cı ilin aprelində həyata keçirilən uğurlu hərbi əməliyyat nəticəsində işğal altındakı torpaqlarımızın bir hissəsi azad edildi. Bu, Azərbaycan Ordusunun gücünü, qüdrətini düşmənə bir daha göstərdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpa olunması ilə bağlı sərəncam imzalaması, orada başlanan quruculuq işləri cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaradıb. İnanırıq ki, tezliklə işğala məruz qalmış digər ərazilərimizdə də dinc əhalinin öz doğma yurduna qayıtması üçün yenidənqurma işlərinə başlanılacaq.

## Ordubad rayonu



***Ordubad rayonunda da Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Rayon Mədəniyyət Evində keçirilən tədbirin iştirakçıları əvvəlcə faciənin ildönümü münasibətilə təşkil edilən sərgiyə baxıblar.

Tədbirdə ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri faciələr, bu soyqırımlarla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün görülən işlər barədə danışılıb. Aparıcılar bildiriblər ki, hər il Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsinin ildönümü istər respublikamızda, istərsə də onun hüdudlarından kənarlarda geniş qeyd olunur, faciə qurbanlarının xatirəsi yad edilir, dünya ictimaiyyətinə ermənilərin əsl üzü göstərilir.

Mərasimdə bu dəhşətli faciənin Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olduğu, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyi, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqları diqqətə çatdırılıb. Ölkəmizin haqq səsinin eşidiləcəyinə, Xocalı qətliamının təqsirkarlarının cəzalandırılacağına, Azərbaycan xalqının işğal altındakı bütün torpaqlarını yağı düşməndən tezliklə azad edəcəyinə, əzəli torpaqlarımızdan didərgin düşmüş həmvətənlərimizin öz ata-baba yurdlarına qayıdacaqlarına və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminlik ifadə edilib.

Sonra mərasim iştirakçıları “Məhv olmuş şəhər” sənədli filminə baxıblar. Ermənilərin törətdikləri cinayətlərdən bəhs olunan və Dağlıq Qarabağ münaqişəsinin reallıqlarını əks etdirən sənədli film tamaşaçılar tərəfindən maraqla izlənilib. Əsas süjet xəttinin uzun illər ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı siyasətinin tarixi xronologiyasına həsr olunduğu filmdə erməni vandalizminin son mərhələsi olan Dağlıq Qarabağın işğalı zamanı onlar tərəfindən törədilən vəhşiliklərdən bəhs edilir.

Tədbirdən sonra görüşüb həmsöhbət olduğumuz Ordubad şəhər sakini Əkbər Babazadə bildirdi ki, bu gün Azərbaycanda ölkə başçısı cənab İlham Əliyev tərəfindən ordumuzun daha da gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Buna görə də, inanırıq ki, erməni əsarətində olan Xocalı yaxın vaxtlarda düşmən tapdağından azad olunacaq, soydaşlarımız doğma ata-baba yurdlarına qayıdacaqlar.

## Culfa rayonu

***Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Culfa rayonunda keçirilən anım tədbirində rayon İcra Hakimiyyətinin, təhsil, mədəniyyət, səhiyyə müəssisələrinin, digər qurumların kollektivləri, ictimaiyyətin nümayəndələri Culfa şəhər 3 nömrəli tam orta məktəbdə faciənin dəhşətlərini əks etdirən fotoşəkillərdən, qəzet, jurnal materiallarından, tarixi faktların yer aldığı kitablardan ibarət sərgiyə baxıblar.***



Sərgidə rayon məktəblilərinin Xocalı soyqırımı ilə bağlı çəkdikləri rəsmlər də diqqəti cəlb edib. Məktəblilər bu soyqırımı faktına münasibətlərini rəsmləri ilə bildiriblər.

Tədbirdə vurğulanıb ki, erməni millətçiləri Azərbaycan torpaqları üzərində “böyük Ermənistan” ideyasını gerçəkləşdirmək üçün dəfələrlə azərbaycanlılara qarşı terror, kütləvi qırğın həyata keçiriblər. Əsassız torpaq iddiaları üzərində qurulan bu proseslərdə erməni faşistləri öz havadarlarına arxalanıblar. 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı isə əsrlər boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür.

Qeyd olunub ki, bu gün “Xocalıya ədalət” beynəlxalq kampaniyası çərçivəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər, beynəlxalq aləmə Azərbaycan həqiqətlərinin çatdırılması istiqamətində atılan uğurlu addımlar sayəsində bir sıra dövlətlər Xocalı soyqırımını tanıyıb.

Anım tədbirində iştirak edən rayon ictimaiyyətinin nümayəndələrindən Məhəmməd Əliyev, Heydərəli Novruzov, Səyavuş Həsənov, Alıyar Quliyev və başqaları bizimlə söhbətdə bildirdilər ki, torpaqlarımızda məskunlaşan, zaman-zaman ölkəmizə qarşı torpaq iddiaları ilə çıxış edən, soyqırımları törədən erməni daşnaklarının tarix qarşısında, Azərbaycan xalqı qarşısında cavab verəcəkləri gün uzaqda deyil. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, Azərbaycan dövlətinin gündən-günə artan beynəlxalq nüfuzu, işğal altında olan torpaqlarımızı azad etməyə qadir olan hərbi gücü və iqtisadi qüdrəti bunu deməyə əsas verir.

Ardı 3-cü səhifədə

## Kəngərli rayonu



*Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə Kəngərli rayonunda anım mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri Xocalı soyqırımını özündə əks etdirən əl işlərindən, fotoşəkillərdən, rəsm əsərlərindən, qəzet, jurnal və kitablardan ibarət sərgiyə baxıblar.*

Tədbirdə bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misligörünməmiş soyqırımı törədiblər. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri yollarda, meşələrdə pusqu quraraq xüsusi amansızlıqla qətlə yetiriblər. Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırıblar. Bu faciə, eyni zamanda ermənilər tərəfindən müxtəlif dövrlərdə xalqımıza qarşı törədilmiş soyqırımı aktlarının davamı, insanlığa yönəlmiş ən böyük hərbi cinayətdir.

Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. 25 il bundan əvvəl düşmənlə əliyalın üz-üzə qalan xalqımızın təhlükəsizliyini indi Cənubi Qafqazın ən güclü ordusu sayılan Azərbaycan Silahlı Qüvvələri qoruyur. Azərbaycan Ordusunun işğal altında qalan torpaqlarımızı azad etmək üçün bütün imkanları vardır. Yaxın gələcəkdə ərazi bütövlüyümüz təmin ediləcəkdir. Məhz o zaman Xocalı şəhidlərinin və torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarının ruhu şad olacaqdır.

## Şahbuz rayonu

***Dünən Şahbuz rayonunda da unudulmaz tarix kimi xalqımızın qan yaddaşına yazılmış Xocalı soyqırımı qurbanlarının anım mərasimi olub. Faciənin 25-ci ildönümü ilə əlaqədar Şahbuz şəhərində keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, idarə, müəssisə kollektivləri iştirak ediblər.***

Şahbuz şəhərindəki "Araz" kinoteatrının foyesində təşkil olunmuş "Məhv edilmiş şəhər" adlı sərgiyə tamaşa edən mərasim iştirakçıları şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq bura tər qərənfillər düzüblər. Mərasimin aparıcıları bildiriblər ki, XX əsrdə mənfur ermənilər öz bədxah niyyətlərinə çatmaq üçün dəfələrlə Azərbaycan torpaqlarında böyük qırğınlar törədib, öz işğalçılıq planlarını həyata keçirməyə çalışıblar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə azğınlaşmış erməni quldur dəstələrinin və onların havadarlarının Xocalıda törətdiyi soyqırımı isə tarixdə bənzəri olmayan bir vəhşilikdir. Azərbaycanın Xocalı şəhərini yerlə yeksan edən erməni terrorçuları bir gecədə yüzlərlə dinc sakini qətlə yetirib, evlərinə od vurub yandırıblar. Təpədən-dırnağa kimi silahlanmış erməni quldur dəstələrinin qarşısına əliyalın çıxaraq son damla qanlarına kimi mübarizə aparan qəhrəman Xocalı şəhidlərinin xatirəsini xalqımız həmişə uca tutur.



Bildirilib ki, vaxt gələcək ermənilər Azərbaycan xalqına qarşı törətdikləri bütün cinayətlərə və soyqırımlarına görə tarix qarşısında cavab verəcəklər. Bu gün Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət bütün Azərbaycan xalqının iradəsini əks etdirir.

## Sədərək rayonu

Sədərək rayonunda da Xocalı soyqırımı qurbanları anılıb. Mərasim iştirakçıları Sədərək Rayon İcra Hakimiyyəti binasının foyesində təşkil edilmiş sərgiyə baxıblar. Sərgidə qanlı faciədən bəhs edən əsər və məqalələr, faciənin dəhşətli məqamlarını əks etdirən fotoşəkillər və rayonun ümumtəhsil məktəbləri şagirdlərinin əl işləri və rəsm əsərləri nümayiş etdirilib.

Tədbirdə çıxış edən Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimi Polad Rzayev qeyd edib ki, Xocalı faciəsi bütün beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan dövlətinin Dağlıq Qarabağı özünə birləşdirmək üçün ən ağır cinayət və vəhşiliyə hazır olduğunu bir daha göstərdi. Dünya gördü ki, XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. Bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Diqqətə çatdırılıb ki, Qarabağda baş verən hadisələr zamanı Sədərək rayonu da hücumlara məruz qalıb. Mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə, ümumilikdə, 14 dəfə hücum ediblər. Həmin ağır günlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Ərazi bütövlüyümüz uğrunda şəhid olan insanların xatirəsi Azərbaycanın alınmaz qalası olan Sədərəkdə daim uca tutulur.

**Xəbərlər şöbəsi**



***Marquette Universitetinin siyasi təhlilçisi və beynəlxalq əlaqələr üzrə eksperti Peter Tase ingilis dilində yayımlanan "Eurasiya Dairy" (Avrasiya gündəliyi) portalına Xocalı soyqırımı haqqında müsahibə verib. Müsahibədə Peter Tase Xocalı həqiqətlərindən, Azərbaycan xalqının məruz qaldığı soyqırımından söhbət açmaqla yanaşı, həm də Naxçıvanın blokadada olmasına da münasibət bildirib. Həmin müsahibəni oxuculara təqdim edirik.***






## Peter Tase: Xocalı soyqırımı qlobal səviyyədə müasir dövrün ən dəhşətli faciə və soyqırımıdır



**Avrasiya gündəliyi:** Sizin fikrinizcə, Xocalı soyqırımı dünya tarixində bəşəriyyətə qarşı törədilmiş ən dəhşətli faciələrdən biridirmi?

**Peter Tase:** Xocalı soyqırımı 25-26 fevral 1992-ci il tarixdə günahsız dinc azərbaycanlılara qarşı etnik erməni silahlı qüvvələri tərəfindən törədilmişdir. Bu silahlı hücumlar 613-dən çox dinc əhalinin (110 qadın və 65 uşaq daxil olmaqla) ölümünə səbəb oldu. Bu faciə Dağlıq Qarabağ silahlı münaqişəsi çərçivəsində bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətdir. Şübhəsiz ki, Xocalı soyqırımı qlobal səviyyədə müasir dövrün ən dəhşətli faciə və soyqırımıdır. Beynəlxalq insan hüquqları təşkilatları, Avropa Birliyi Komissiyası və Avropa Parlamenti belə bir amansız silahlı hücuma qarşı xüsusi qətnamə qəbul edərək Xocalı faciəsinin 25-ci ildönümünə sarsılmaz siyasi və humanitar dəstək nümayiş etdirməlidir. Xocalı faciəsi XX əsrin həqiqi Holokostunu (soyqırımı) təcəssüm etdirir.



Avropa Birliyi, ABŞ Konqresi, azad və demokratik dünyanın institutları soyuq müharibədən sonrakı dövrdə Avropa və Asiyada baş vermiş bu qanlı faciənin ildönümündə bəyanatlar səsləndirərək uzun müddətdən bəri bu hadisələrdən əziyyət çəkmiş Azərbaycan xalqına dəstək nümayiş etdirməlidirlər. Çox təəssüf ki, Xocalı soyqırımını törədən erməni stereotipi Cənubi Qafqazda regional iqtisadi inkişafı ləngidir, Azərbaycan Respublikasının suveren ərazilərinə və onun günahsız insanlarına ziyan vurmaqda davam edir. Ermənistan dünya səviyyəsində ən çox məcburi köçkünün evlərindən didərgin düşməsinə səbəb olmuş və suveren Azərbaycanın iyirmi faizdən artıq ərazilərində Azərbaycan tarixşünaslığını, mədəniyyətini və nadir arxeoloji xəzinələrini məhv etməyə davam edir.



**Avrasiya gündəliyi:** Sizin fikrinizcə, Amerika Birləşmiş Ştatlarının Konqresi Xocalı soyqırımını tanımalıdırmı?

**Peter Tase:** Mən Birləşmiş Ştatların Konqresi və Ağ Evin Xocalı soyqırımını tanımasını tam dəstəkləyirəm. Yaxşı olar ki, bu ay Konqresin birgə iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev nitq söyləsin. Bu, Azərbaycan xalqı və sivil dünyanın bu dəhşətli Holokostdan sarsılması barədə dünya ictimaiyyətinin məlumatlılığını artırmaq üçün yeganə imkandır.

Mən əminəm ki, Birləşmiş Ştatların Nümayəndələr Palatası və Senatın üzvləri Prezident İlham Əliyevin söylədiyi nitqi dinləyəcəklər və onların imkanları olacaq ki, Azərbaycanın effektli dövlət siyasəti və düşünülmüş xarici siyasəti ilə tanış olsunlar. Xocalı soyqırımı müasir dövrdə baş vermiş ən qanlı faciə kimi dünya tarixinə həkk olunacaq və bizim hamımız belə bir faciəli tarixi hadisənin bütün qitələrdə tanınması istiqamətində daha aktiv iş aparmalıyıq.



**Avrasiya gündəliyi:** Minlərlə mədəni və dini abidələr Azərbaycanın işğal olunmuş ərazilərində məhv edilmişdir? Bu barədə nə deyə bilərsiniz?

**Peter Tase:** Hər gün təmas xəttində, demək olar ki, Ermənistan silahlı qüvvələrinin törətdiyi silahlı təxribatları müşahidə edirik. Digər bir başqa mədəni soyqırım isə Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayon daxil olmaqla, Azərbaycanın suveren ərazisinin iyirmi faizindən çoxunun Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır. Qeyd etməliyəm ki, 20 ildən artıqdır, Ermənistan silahlı qüvvələri beynəlxalq alimlər üçün əhəmiyyət kəsb edən mindən artıq (bu mədəni və dini abidələrin bir çoxu Əcəmi Əbubəkr oğlu Naxçıvani memarlıq məktəbinin üslubunda tikilib) mədəniyyət abidələrini, dini abidələri yandırmış və tam məhv etmişdir.



Ermənistan silahlı qüvvələri, həqiqətən, alim və akademiklər üçün mühüm məlumatları özündə əks etdirən nadir kitabların olduğu çoxlu kitabxanaları məhv edib. Azərbaycan Respublikası ərazisinin 20 faizində Ermənistan silahlı qüvvələrinin törətdiyi dəhşətli işğal və dağıntılarla üzləşmişdir, lakin hər bir beynəlxalq qonaq Bakı şəhərinin mərkəzi parklarından birinin yaxınlığında erməni kilsəsini gördüyünə görə təəccüblənir.

Qafqazın mərkəzində iki tərəf arasında münaqişənin baş verməsini müşahidə etmək üzücü haldır. Bir tərəfdə mədəniyyətlər və dinlərarası dialoq, demokratik təsisatlar və insan hüquqlarını təbliğ edən Azərbaycan Respublikası, digər tərəfdə isə korrupsiya, daxili nizamsızlıq, yüksək cinayətkarlıq, BMT qətnamələri və beynəlxalq normaları pozaraq 20 faiz Azərbaycan torpaqlarını işğal edən Ermənistan dövləti dayanır. Bundan başqa, Yerevan 20 ildən artıqdır ki, Azərbaycan Respublikasının suveren ərazisi olan Naxçıvan Muxtar Respublikasına qarşı iqtisadi blokada tətbiq edib. Dünya ictimaiyyəti bilməlidir ki, Naxçıvan əhalisi ticarət və digər sahələr bir tərəfə, Ermənistan tərəfindən tətbiq edilmiş iqtisadi soyqırımdan əziyyət çəkir.

**işğaldan əvvəl** **Xocalı** **işğaldan sonra**





*1 yanvar 1989-cu ilin məlumatına görə Xocalının əhalisi 20,9 min nəfər olub.*

*Xocalı rayonu 1991-ci il noyabrın 26-da Yuxarı Qarabağın dağətəyi hissəsində qədimdən azərbaycanlılar yaşayan Xocalı şəhəri və onun ətrafındakı torpaqların hesabına yaradılıb. Sahəsi 93688 hektardır.*

*Xocalı rayonu əlverişli coğrafi mövqeyə, münbit torpaqlara malikdir. Dağlıq ərazilərin dağətəyi zona ilə birləşdiyi yerdə məskən saldığına görə burada insanların yaşayış şəraiti üçün tələb olunan münbit torpaqlar, su ehtiyatları boldur. Dəniz səviyyəsindən 580 metr hündürlükdə yerləşir.*

*Xocalı rayonu Şuşa-Ağdam yolunun üstündədir. Xocalı ilə ölkəmizin paytaxtı Bakı şəhəri arasında olan məsafə 375 kilometrdir.*

*Xocalı rayonu ərazisində Zərinbağ və Ağçay üzlük daşı yataqları, ehtiyatları 12 milyon 434 min ton olan qırmadaş və əhəng istehsalına yararlı əhəngdaşı yatağı, kərpic istehsalına yararlı Xocalı gil yatağı, ehtiyatları 7 milyon 280 min kubmetr olan qum-çınqıl qarışığı yatağı, istismar ehtiyatları 9 min kubmetr/gün olan yeraltı şirin su yatağı mövcuddur.*

*Xocalı rayonu ərazisindəki Bədərə çayı hövzəsində fıstıq-palıd meşələri xüsusi olaraq qorunurdu.*

## Xocalı Azərbaycanın qədim mədəniyyət mərkəzidir

***Qarabağ Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanın qədim abidələrindən biri olan Azıx mağarası da məhz elə bu ərazidə yerləşir. Azıx mağarası və onun ətrafında aparılan araşdırmalar Azərbaycanda insanların 2 milyon il bundan əvvəl məskunlaşdığını deməyə imkan vermişdir. Qarabağ abidələri Azərbaycanın Daş dövrü və Tunc dövrü mədəniyyətlərinin öyrənilməsi üçün əvəzsiz əhəmiyyətə malikdir.***

Qarabağın tariximiz üçün böyük əhəmiyyəti olan abidələrinin bir qrupu Xocalı şəhəri ətrafında yerləşir. Qədim Xocalı ətrafında yerləşən abidələr Tunc dövrünün bütün mərhələlərini izləməyə imkan verir. Bu mədəniyyət abidələri arasında Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanlarının özünəməxsus yeri vardır. Özünəməxsus xarakterik xüsusiyyətləri, xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkar olunmuş, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Hazırda müəyyən edilmişdir ki, Xocalı-Gədəbəy mədəniyyəti Mərkəzi və Cənubi Qafqazın böyük bir qismində geniş yayılmışdır. Aparılan araşdırmalar zamanı bu mədəniyyətin Naxçıvan ərazisində də yayıldığı müəyyən edilmişdir.

Xocalıdan başqa, Dağlıq Qarabağın Axmaxı, Sırxavənd-Ballıqaya, Dovşanlı və digər kəndlərində aşkar olunan Xocalı-Gədəbəy mədəniyyəti abidələri hələ XIX əsrdən yabançı sərvət düşkünlərinin diqqətini cəlb etmişdir. Onlar bu mədəniyyəti qazanc əldə etmək məqsədilə dağıtmışlar. Hələ 1834-cü ildə Şuşaya gələn Dyubua de Monpere Elenendorf ətrafındakı abidələrdə qazıntı aparmışdır. Daha sonra kapitalizmin inkişafı ilə bağlı olaraq bir çox xarici şirkətlər Azərbaycanın təbii sərvətlərinə maraq göstərməyə başlamışdır. Simens şirkəti 1864-cü ildə Gədəbəy mis mədənlərini aldıqdan sonra burada zavod inşa edilməyə başlanmış və zavodun inşası zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr dağıdılmışdır. Gədəbəy mis fabrikində elektrotexnik işləyən Valdemar Belk 350-dən artıq abidəni qazaraq dağıtmışdır. İmperator arxeoloji komissiyası V.Belkin qazıntılarına qadağa qoyduqdan sonra onu Emil Resler əvəz etmiş və qarət olunmuş kolleksiyanın böyük bir qismi qadağan olunmasına baxmayaraq, Berlinə göndərilmişdir.

Məlum olmuşdur ki, bu qazıntılara istiqamət verən və onu maliyyələşdirən Qafqaz mədəniyyət nümunələrinin kolleksioneri, Berlində yaşayan Rudolf Virxov olmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin tədqiq edilməsində Y.İ.Hummel, A.A.İvanovski, İ.M.Cəfərzadə, H.F.Cəfərov, M.Hüseynova, Minkeviç-Mustafayeva və digər tədqiqatçıların xidmətləri olmuşdur.

Son illər bu maddi-mədəniyyət nümunələrinin tədqiqi ilə Nuridə Qədirova məşğul olmağa başlamışdır. Onun Almaniyada və Rusiyada olan maddi-mədəniyyət nümunələrini, o cümlədən arxiv materiallarını araşdırması nəticəsində müəyyən olmuşdur ki, alman mənşəli "tədqiqatçı"ların Rudolf Virxov tərəfindən maliyyələşdirilməsinin əsas səbəbi onların hind-arilərin ana vətəninin axtarılması istəyi ilə bağlı olmuşdur. Onlar bununla da kifayətlənməyərək öz əsərlərində erməniləri hind-ari adlandırmış və Qafqazın qədim mədəniyyətlərini onlara aid etmişlər. E.Reslerin yazdığı hesabatlarda da Xocalı-Gədəbəy mədəniyyətinin ermənilərə aid olduğu göstərilmişdir. Hələ bu harasıdır, 1985-ci ildə Volfanq Naqel və Eva Ştromenqer Xocalı-Gədəbəy mədəniyyətinə aid materialların bir qismini "Qalakənd" kataloqu adı ilə nəşr etdirmiş və bu mədəniyyətin ermənilərə, abidələrin isə Ermənistana aid olduğunu yazmışdır. Halbuki bu mədəniyyətin ermənilərə heç bir aidiyyəti yoxdur. Digər tərəfdən isə qeyd etmək lazımdır ki, ermənilər tarixşünaslıqda hind-ari mənşəli deyil, Ön Asiya mənşəli adlandırılmışlar və Qafqazın yerli sakinləri olmamışlar. Xocalı-Gədəbəy mədəniyyətinə aid insan skeletlərinin araşdırılması isə onların min illər boyu bu ərazidə məskunlaşan qədim tayfaların sələfi olduğunu ortaya çıxarmışdır.

Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-VIII minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Bu mədəniyyətin etnik mənsubiyyəti ilə bağlı Azərbaycan tarixşünaslığında əsaslı bir fikir deyilməsə də, tarixi faktların və yazılı mənbələrin araşdırılması göstərir ki, Azərbaycanın böyük bir qismində – Göyçə hövzəsi, Qarabağ və Naxçıvanda məskunlaşan bu tayfalar Şərqi Anadolu və Urmiya hövzəsinədək irəliləmiş, Şərq tarixində böyük rol oynamışlar.

Eradan əvvəl I minillikdə Urartu mixi yazılarında Etiuni tayfa ittifaqının adı xatırlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan tarixi" çoxcildliyinin I cildində deyilir: "Urartulular Etiuni tayfalarının uzaq şimalda, Göyçə gölünün yaxınlığında yerləşdiyini xatırlasa da, qeyd etmək lazımdır ki, bu tayfalar Naxçıvanın qonşuluğunda yerləşən böyük tayfa birliyi olmuşdur. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdı. Qeyd etmək lazımdır ki, Uti vilayətinin lokallaşdırıldığı ərazi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazi ilə üst-üstə düşür. Antik mənbələr bu tayfaların yaşadığı ərazini Otena adı ilə xatırlamışdır. Bu tayfalar vaxtilə Naxçıvandan və Xudafərindən keçərək Azərbaycanın cənubunda məskunlaşmışlar. Araşdırmalar zamanı Oğlanqaladan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı da aşkar olunmuşdur". Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsində deyilir: "Mənim qarşıma ...Etiuni ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..." Kitabənin mətni Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiqləyir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını göstərir.

Cənubi Qafqazın mərkəzində məskunlaşan qəhrəman xalqımız uzun illər qədim dünyanın güclü dövlətlərinə qarşı mübarizə aparmış, onlara boyun əyməmişdir. Bu qədim və mübariz xalqın sələfləri olan xocalılılar da 1992-ci ilin fevralında düşmənə müqavimət göstərmək üçün hazır idilər. Onlar tarixboyu yadellilərə boyun əyməmişdilər. Elə o gün də, fevralın 25-dən 26-na keçən gecə onlar düşmənə layiqli müqavimət göstərdilər. Onlar şəhid oldular, amma yenilmədilər, Vətəni qoyub qaçmadılar.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

*Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar "Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda yeddinci muxtar respublika inşa yazı, şeir və rəsm müsabiqəsi keçirilib. Müsabiqəyə 20 inşa yazı, 50 rəsm əsəri təqdim olunub, 13 şeir bədii qiraət edilib.*

## Xocalı soyqırımına həsr olunmuş inşa yazı, şeir və rəsm müsabiqəsi başa çatıb



Müsabiqənin yekun tədbirində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, təhsil nazirinin müavini Əli Vəliyev, Yazıçılar Birliyinin sədri Asim Əliyev, Rəssamlar Birliyinin üzvü Eldar Zeynalov çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, Xocalı soyqırımı Azərbaycan tarixinin qanlı səhifələrindən biridir. Bu gün respublikamız bütün sülhsevər ölkələri insanlığa qarşı yönəlmiş bu faciəyə hüquqi-siyasi qiymət verməyə səsləyir. Müsabiqədə iştirak edən yeniyetmə və gənclər də çalışıblar ki, Xocalı həqiqətlərini, bu qətliamın səbəblərini və mahiyyətini inşa yazılarda, rəsm nümunələrində, səsləndiriləcək şeirlərdə göstərə bilsinlər.

"Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq" mövzusunda yeddinci muxtar respublika şeir müsabiqəsində Zəlimxan Yaqub, Qəzənfər Mənsimoğlu, Əli Rafiq, Şəhriyar Allahyaroğlu, Vaqif Məmmədov, Hikmət Ziya, Pəri İsmayılova və digər şairlərin şeirləri şagirdlər tərəfindən bədii qiraət edilib. Müsabiqədə Şərur rayon Püsyan kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Əli Sadiqov 1-ci, Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin 8-ci sinif şagirdi Fatimə Hüseynli, Babək rayon Kərimbəyli kənd tam orta məktəbinin 8-ci sinif şagirdi Bahar Mehrəliyeva 2-ci, Naxçıvan Qızlar Liseyinin 5-ci sinif şagirdi Roza Süleymanlı, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Anar Mikayılov 3-cü yerlərə layiq görülüblər.

İnşa yazı müsabiqəsi üzrə Şərur rayon Aralıq kənd tam orta məktəbinin 10-cu sinif şagirdi Fatma Kazımova 1-ci, Kəngərli rayon Yurdçu kənd tam orta məktəbinin 10-cu sinif şagirdi Sunay Abdullayeva 2-ci, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Sərvət Tağıyev 3-cü yerləri tutublar.

Rəsm müsabiqəsində isə Ordubad Rayon Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvü Çinar Hacıyev 1-ci, Naxçıvan Qarnizonu tam orta məktəbinin 7-ci sinif şagirdi Bəhruz Ələkbərli 2-ci, Naxçıvan Qızlar Liseyinin 8-ci sinif şagirdi Adilə Babayeva 3-cü yerləri qazanıblar.

Müsabiqənin qalibləri diplomlarla təltif ediliblər.

Sonda isə Xocalı soyqırımına həsr edilmiş rəsm sərgisinə baxış olub.

**Fatma BABAYEVA**

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 155